

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 20 (23.182)

*29 yanvar 2019-cu il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 28-də Prezident Sarayında şəhid ailələri ilə görüşüblər.

Şəhid ailələrinin nümayəndələrinə dərin hörmətini ifadə edən Prezident İlham Əliyev şəhidlərimizə Allahdan rəhmət diləyib, onların torpaq, Vətən uğrunda həlak olaraq şəhidlik zirvəsinə yüksəldiyini deyib.

Sonra dövlətimizin başçısı birdəfəlik ödəməni almaq üçün istifadə olunan plastik kartları şəhid hərbi qulluqçularının vərəsələrinə təqdim edib.

Dövlətimizin başçısı Cocuq Mərcanlının bizim əyilməz iradəmizin rəmzinə çevrildiyini, onun yenidən qurulmasının hərbi qələbə nəticəsində mümkün olduğunu vurğulayıb. “Aprel döyüşləri bütün dünyaya göstərdi ki, Azərbaycan güclü dövlətdir, ölkəmizin güclü ordusu var və xalqımız heç vaxt işğalla barışmayacaq”, – deyən Prezident İlham Əliyev şəhid ailələrinə Vətən üçün gözəl övladlar yetişdirdiklərinə görə təşəkkür edib, xalqımızın şəhidlərlə fəxr etdiyini, onların bizim ürəyimizdə əbədi yaşayacağını bildirib. Sonda xatirə şəkli çəkdirilib.

* * *

Yanvarın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda “Rossiya 1” televiziya kanalına müsahibə verib. Həmin müsahibə yanvarın 28-də “Rossiya 24” kanalında yayımlanıb.



## Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinə yeni tibbi avadanlıq təqdim olunub

***Yanvarın 26-da “Nəxşicahan-Med” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinə yeni exokardioqrafiya avadanlığı təqdim olunub.***

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Seymur Talıbov çıxış edərək deyib ki, muxtar respublikada səhiyyənin inkişafına hərtərəfli diqqət və qayğı göstərilir. İnsan sağlamlığına göstərilən qayğının nəticəsidir ki, muxtar respublikanın bütün bölgələrində yeni tibb müəssisələri istifadəyə verilir, onlar ən müasir tibbi avadanlıqlarla təmin olunur. Bu gün “Nəxşicahan-Med” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yeni tibbi avadanlığın verilməsi isə uşaq sağlamlığına öz töhfəsini verəcək.

Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov bildirib ki, səhiyyə muxtar respublikada daim diqqət mərkəzində olan sahələrdəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin göstərdiyi qayğının nəticəsidir ki, hazırda muxtar respublikanın ən ucqar dağ kəndlərində belə, müasir tələblərə cavab verən həkim ambulatoriyaları, feldşer-mama məntəqələri fəaliyyət göstərir. Səhiyyə daim inkişaf edən sahə olduğundan tibbi avadanlıqlar da davamlı olaraq yenilənir və təkmilləşdirilir. Doğum Mərkəzinə təqdim olunan yeni exokardioqrafiya aparatı da tibbi xidmətin keyfiyyətini yüksəldəcəkdir.



Sonra yeni exokardioqrafiya aparatına baxış olub.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-kardioloqu Elnurə Bağırova məlumat verib ki, Hollandiya istehsalı olan “PHİLLİPS” markalı yeni exokardioqrafiya aparatı hamilə qadınlarda və yenidoğulmuşlarda anadangəlmə və sonradan qazanılmış ürək qüsurlarının aşkar olunmasında istifadə olunur. Eyni zamanda hamiləlik zamanı ana bətnində döldə olan ürək qüsurlarının ritm pozğunluqlarını aşkar edir. Bu da uşaq sağlamlığının qorunmasında müstəsna əhəmiyyətə malikdir.



Elnurə Bağırova göstərilən qayğıya görə kollektiv adından minnətdarlıq edib.

**“Şərq qapısı”**

## Muxtar respublikada maliyyə bazarına nəzarət edilir

***Maliyyə Bazarlarına Nəzarət Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi muxtar respublikada maliyyə bazarlarının tənzimlənməsi, nəzarətin həyata keçirilməsi, şəffaflığın və inkişafın təmin olunması üzrə fəaliyyətini 2018-ci ildə də davam etdirmişdir.***

İdarə tərəfindən ötən il daxili istehsal olan alkoqollu içkilərə və tütün məmulatlarına 148 milyon 200 min aksiz markası təhvil verilmişdir. Bu dövrdə 85 ipoteka kağızının dövlət qeydiyyatı aparılmış, 81 ipoteka kağızı isə əlavə dövlət qeydiyyatına alınaraq reyestrə daxil edilmişdir. Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu və “Naxçıvan İpoteka Fondu” Açıq Səhmdar Cəmiyyəti tərəfindən daxil olmuş müraciətlər əsasında 21 ipoteka kağızına xitam verilmişdir. Həmçinin bir sıra cəmiyyətlərin qiymətli kağızlarının dövriyyədən çıxarılması idarə tərəfindən nəzərə alınmış və qanuni şəkildə rəsmiləşdirilmişdir.

Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının İdarə Heyətinin müvafiq əmrinə əsasən muxtar respublika ərazisində “Daşınar əmlakın yüklülüyünün dövlət reyestri”nin aparılması Palatanın Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinə həvalə olunmuşdur. Ötən ilin oktyabr ayında muxtar respublikada fəaliyyət göstərən bank və bank olmayan kredit təşkilatlarının nümayəndələri və sahibkarların iştirakı ilə “Daşınar əmlakın yüklülüyünün dövlət reyestri” və reyestrin aparılması barədə təqdimat keçirilmişdir.

Eyni zamanda idarə tərəfindən muxtar respublikada sığorta sahəsində qanunvericiliyin tələblərinə riayət edilməsinə ciddi nəzarət olunmuşdur.

2018-ci il ərzində bank sektorunda çalışan işçilərin bilik və təcrübələrinin artırılması məqsədilə idarənin və “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin birgə təşkilatçılığı ilə Naxçıvan Biznes Mərkəzində Azərbaycan Bank Tədris Mərkəzi tərəfindən “Çirkli pulların yuyulması” mövzusunda kurs keçirilmişdir. Kursda iştirak etmiş dinləyicilərə sertifikatlar təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən 1 yanvar 2019-cu il tarixə iqtisadiyyata yönəldilən kredit qoyuluşu 102 milyon 681 min manat, o cümlədən qısamüddətli kredit qoyuluşu 2 milyon 964 min manat, uzunmüddətli kredit qoyuluşu isə 99 milyon 717 min manat təşkil etmişdir. Kredit qoyuluşunda 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1 milyon 267 min manat artım müşahidə olunmuşdur. Bank və kredit təşkilatları tərəfindən 2018-ci ildə 50 milyon 879 min 300 manat kredit verilmişdir ki, bunun 5 milyon 806 min manatı qısamüddətli, 45 milyon 72 min manatı isə uzunmüddətli kreditlərdir. Hesabat ili ərzində verilmiş kreditlər 2017-ci il ərzində verilmiş kreditlərlə müqayisədə 19 milyon 564 min manat artmışdır. Bu artımın başlıca səbəbləri məhz ölkə üzrə təklif olunan ən aşağı kredit faizlərinin Naxçıvan Muxtar Respublikası ərazisində təklif olunması və ehtiyac meyarlarına uyğun düzgün təyinatlarla həyata keçirilməsidir.

Muxtar respublikada fəaliyyət göstərən banklar və bank olmayan kredit təşkilatları tərəfindən fiziki və hüquqi şəxslərə açılmış bank hesablarının işləkliyinin təmin olunması da diqqət mərkəzində saxlanmışdır. Banklar tərəfindən 2018-ci ildə 18 min 909 müştəriyə yeni bank hesabı açılmış, onlardan da 101-i hüquqi, 18 min 808-i isə fiziki şəxslərə aid hesablar olmuşdur. 1 yanvar 2019-cu il tarixə muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən 2060 hüquqi, 78 min 146 fiziki şəxs olmaqla, 80 min 206 müştəriyə bank xidməti göstərilmişdir. Xidmət olunan hesabların 70 min 774-ü işlək hesab olmuşdur ki, onların da 1548-i hüquqi, 69 min 226-sı isə fiziki şəxslərə aid hesablardır. Naxçıvan Muxtar Respublikasında elektron ödəniş kartlarının ümumi sayı 269 min 625, POS-terminalların sayı isə 1272 ədədə çatmışdır. 2018-ci ildə POS-terminallar və digər ödəniş vasitələri ilə aparılan nağdsız əməliyyatların həcmi 35 milyon 93 min manat təşkil etmişdir. Bu da 2017-ci illə müqayisədə 4 milyon 313 min manat artıq olmuşdur.

Bank xidmətlərinin daha əlçatan olması, yerlərdə xidmətlərə çıxış imkanlarının genişləndirilməsi məqsədilə bankomatların quraşdırılması davam etdirilmişdir. Hazırda muxtar respublikada, ümumilikdə, 111 bankomat vardır. Onlardan 57-si Naxçıvan şəhərində, 54-ü isə rayonlarda və böyük kəndlərdə xidmət göstərir. Bunlarla yanaşı, hesabat ili ərzində muxtar respublika vətəndaşlarının bank xidmətlərinin və digər ödənişlərinin rahat və sürətli həyata keçirilməsi üçün yeni ödəmə terminalları quraşdırılmış, onların sayı 39-a çatmışdır.

İnfrastruktur işləri ilə yanaşı, əhalinin nağdsız ödənişlərə marağının artırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi ilə birgə mütəmadi olaraq mükafatlandırma tədbirləri keçirilir. Təşkil olunan 10-cu tirajla birlikdə nağdsız ödənişlərə üstünlük verdikləri üçün hədiyyələndirilənlərin sayı 2179 nəfərə çatmışdır. Böyük təsir qabiliyyətinə malik olan tədbirin 10 tirajı ərzində muxtar respublika sakinlərinə verilmiş hədiyyələrin məbləği 140 min manatı ötmüşdür.

Hazırda muxtar respublikada fəaliyyət göstərən banklarda 19 növ müxtəlif təcili pulköçürmə sistemi fəaliyyət göstərir. Ötən il təcili pul köçürmələri vasitəsilə dünyanın 40-dan çox ölkəsindən muxtar respublika vətəndaşlarının pasport məlumatlarına 6 milyon 879 min ABŞ dolları məbləğində pul köçürülmüş və banklar vasitəsilə ödənilmişdir. 1 yanvar 2019-cu il tarixə muxtar respublikada fəaliyyət göstərən banklarda fiziki şəxslərin əmanətlərinin ümumi məbləği 6 milyon 566 min manat təşkil etmiş, o cümlədən xarici valyuta ilə qoyulan əmanətlərin manat ekvivalenti ilə məbləği 1 milyon 238 min manat olmuşdur.

Maliyyə Bazarlarına Nəzarət Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi 2019-cu ildə də öz fəaliyyətini muxtar respublikada etibarlı maliyyə mühitinin formalaşdırılması istiqamətində quracaqdır.

***Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi***

## Naxçıvan Qarnizonu qoşunlarında müşavirə keçirilib



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Naxçıvan Qarnizonu qoşunlarında 2018-ci tədris ilində döyüş və döyüşə hazırlığın, maddi-texniki təminatın və hərbi intizamın vəziyyətinə dair yekun müşavirə keçirilib.*

Naxçıvan Qarnizonunun rəisi, general-leytenant Kərəm Mustafayev müşavirənin planını, iştirak edən rəsmi qonaqların və şəxsi heyətin tərkibini elan etdikdən sonra muxtar respublikamızda ordu quruculuğundan bəhs edən "Ordumuz qürurumuzdur" adlı film nümayiş etdirilib.

Kərəm Mustafayev 2018-ci tədris ilində qoşunlarda döyüş hazırlığının, döyüş və döyüşəhazırolmanın, maddi-texniki təminatın və hərbi intizamın vəziyyətini təhlil edərək məruzə edib. Bildirilib ki, təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu siyasətinin Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan ordusu bu gün dünyanın ən güclü 50 ordusu sırasına daxil olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun yüksək diqqət və qayğısı sayəsində uzun illər müxtəlif mərhələlərdən keçərək formalaşmış Əlahiddə Ümumqoşun Ordu bu gün yerləşdiyi coğrafi mövqeyə, kontingentinə və döyüş qabiliyyətinə görə keçmiş SSRİ və indiki MDB ölkələrinin silahlı qüvvələri səviyyəsində analoqu olmayan statusa malikdir.

Vurğulanıb ki, yola saldığımız 2018-ci ildə "İslam Mədəniyyətinin Paytaxtı" kimi şərəfli bir adı uğurla daşıyan Naxçıvan bir sıra əlamətdar tədbirlərə ev sahibliyi edib. Ötən il də bu qədim diyarın müdafiə qabiliyyətinin yüksəldilməsi baxımından yaddaqalan olub. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ötən il mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun 60 çarpayılıq yeni hərbi xəstəxanasının açılışında iştirak etməsi, silahlanmaya yeni qəbul edilən hərbi texnika ilə "N" hərbi hissəsində və "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının Milli Qəhrəman Əmiraslan Əliyev adına Qaraçuq Sərhəd Dəstəsində yaradılan şəraitlə tanış olması dövlət qayğısını hər zaman üzərlərində hiss edən hərbi qulluqçularımızda böyük ruh yüksəkliyi yaradıb.

"Azərbaycan Xalq Cümhuriyyətinin və Ordusunun 100 illik yubileylərini qeyd etdiyimiz 2018-ci ilin ən əlamətdar hadisələrindən biri də Əlahiddə Ümumqoşun Ordunun tariximizə qızıl hərflərlə yazdığı Günnüt zəfəri oldu", – deyən Naxçıvan Qarnizonunun rəisi qeyd edib ki, beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında da qeyd olunduğu kimi Naxçıvan Əlahiddə Ümumqoşun Ordu 1992-ci ildə işğal edilmiş Günnüt kəndi və ətraf əraziləri, ümumilikdə, 11 min hektar torpaq sahəsinə nəzarəti qaytarıb, ön xətdə və dayaq məntəqələrində etibarlı müdafiə sistemi yaradılıb.

Bildirilib ki, qazanılan nailiyyətlərin əsasında, ilk növbədə, vətənpərvərlik hissləri dayanır. Ötən il oktyabrın 30-da keçirilən Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələrinin birgə taktiki-xüsusi təlimi bu fikri bir daha təsdiq edib.

Diqqətə çatdırılıb ki, ötən il Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsi üçün tikilmiş yeni xidməti və yaşayış kompleksinin, yeni avtomobil parkının, Babək rayonunun Gərməçataq və Buzqov kəndlərində əsgəri-məişət komplekslərinin açılışında iştirak edib, yeni istirahət parkı və Naxçıvan Döyüş Şöhrəti Muzeyi ilə tanış olub, ordumuz tərəfindən nəzarət altına götürülərək etibarlı müdafiə sistemi qurulan Günnüt kəndindəki hərbi hissədə şəxsi heyətlə görüşüb, yeni mövqelərdə xidmətin təşkili ilə maraqlanıb, Günnüt əməliyyatında iştirak edən əsgər və zabitlərə hədiyyələr təqdim edib.

Naxçıvan Qarnizonunun rəisi, general-leytenant Kərəm Mustafayev vurğulayıb ki, ümumilikdə, ötən il ərzində keçirilən tədbirlər şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin yüksək səviyyədə olduğunu təsdiq edib. Qarnizonun "Bir nəfər hamı, hamı bir nəfər üçün!" şüarı əməldə özünü göstərib.

Məruzə ətrafında müzakirələr zamanı Naxçıvan Muxtar Respublikası hərbi prokurorunun müavini, ədliyyə polkovnik-leytenantı Rəşad İsmayılovun, Hərbi Məhkəmənin sədri Polad Həsənovun, Dövlət Təhlükəsizliyi Xidmətinin İdarə rəisi, polkovnik-leytenant Ramin Əhmədovun, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-mayor Niyaməddin Tağıyevin, Naxçıvan Muxtar Respublikası fövqəladə hallar nazirinin müavini, general-mayor Hikmət Kərimovun, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının komandiri, polkovnik Səlim Niftəliyevin 2018-ci tədris ilində görülmüş işlər və 2019-cu ildə qarşıda duran vəzifələrlə bağlı məruzə və təklifləri dinlənilib. Əlahiddə Ümumqoşun Ordu komandanının birinci müavini-qərargah rəisi, general-mayor Fazil Ağalarov "Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinə uzlaşdırma planı" haqqında ətraflı məlumat verib.

Müşavirəyə Naxçıvan Qarnizonunun rəisi, general-leytenant Kərəm Mustafayev yekun vuraraq 2019-cu tədris ilində döyüş və ictimai-siyasi hazırlıq üzrə fəaliyyət istiqaməti, qarşıda duran məqsəd və vəzifələrə dair Ali Məclis Sədrinin tapşırıqlarını diqqətə çatdırıb. Bildirilib ki, yeni tədris ilində də Naxçıvan Qarnizonu qoşunları qarşıda duran bütün tapşırıqları layiqincə yerinə yetirəcək, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən təsdiq edilən "Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinə uzlaşdırma planı"na uyğun olaraq döyüş qabiliyyətini yüksəldəcəkdir. Naxçıvanın müdafiə və mühafizəsi daha da təkmilləşdiriləcək, muxtar respublikanın təhlükəsizliyinə qarşı yönəlmiş hər hansı bir təhdidin qarşısı qətiyyətlə alınacaqdır.

Sonda döyüş və ictimai-siyasi hazırlıqda yüksək nəticələr əldə etmiş bir qrup hərbi qulluqçuya "Şücaətə görə" medalı, "Hərbi xidmətdə fərqlənməyə görə" 1-ci, 2-ci və 3-cü dərəcəli medallar, qiymətli hədiyyə və fəxri fərman təqdim olunub.

**Nəriman NƏCƏFOV**

## Təlim kursları başlayıb

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən müəllimlərin yaradıcılıq potensialının yüksəldilməsi, təlim prosesində onların əyanilikdən, o cümlədən elektron lövhələrdən, laboratoriyalardan daha da səmərəli istifadə etmələrinin təmin olunması, fərqli rayon və məktəblərdən olan müəllimlər arasında fikir, təcrübə və ideya mübadiləsinə şərait yaratmaq məqsədilə təlim kursları təşkil edilir.

Bu tədbirlərin davamı olaraq yanvarın 28-dən Naxçıvan Dövlət Universitetində muxtar respublikanın ümumtəhsil məktəblərində tədris aparan fizika, kimya və biologiya müəllimləri üçün təlim kurslarına start verilib. Dördgünlük təlim kurslarına hər fənn üzrə 20 olmaqla, ümumilikdə, muxtar respublikanın ümumtəhsil məktəblərindən 60 fənn müəllimi cəlb edilib. Qeyd olunan fənlərin aktual mövzularına həsr olunmuş seminarlar yüksəkixtisaslı mütəxəssislər tərəfindən, müasir informasiya-kommunikasiya texnologiyaları vasitəsilə keçirilir. Seminar çərçivəsində universitet şəhərciyi ilə, o cümlədən Botanika bağı və muzeyi, Qeyri-üzvi kimya, Analitik kimya, Fiziki və kolloid kimya, elmi-tədqiqat laboratoriyalarında praktik məşğələlərin keçirilməsi nəzərdə tutulur. Naxçıvan Dövlət Universitetinin elmi dərəcəli müəllimləri tərəfindən tədris olunacaq təlim kurslarında tədrisin keyfiyyətinin yaxşılaşdırılmasına, metodiki sahədə təkliflərin verilməsinə, ayrı-ayrı fənlər üzrə çətin mövzular ətrafında təhlillərin təşkilinə dair qabaqcıl təcrübə öyrəniləcək, müəllimlərin fənn laboratoriyalarından istifadə bacarıqlarının artırılmasına köməklik göstəriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Dövlət Universitetində Gənclər Gününə həsr edilmiş tədbir

*Naxçıvan Dövlət Universitetində 2 fevral – Gənclər Gününə həsr edilmiş tədbir keçirilib.*

Əvvəlcə universitetin İncəsənət fakültəsinin sərgi salonunda nümayiş etdirilən 30-a yaxın rəsm əsərinə baxış olub.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tələbə-gənclərə göstərilən dövlət qayğısından danışıb. Qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanı muxtar respublikada gənclərə göstərilən yüksək diqqət və qayğının daha bir ifadəsidir.



Sərgidən sonra universitetin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsində keçirilən konfransda çıxış edən rektor bildirib ki, müstəqil Azərbaycanın dövlət quruculuğu sahəsində gənclərin müstəsna rolunu və 1996-cı il fevralın 2-də müstəqil Azərbaycan Respublikası Gənclərinin I Forumunun keçirildiyini nəzərə alaraq ümummilli liderimiz Heydər Əliyev 1997-ci il fevralın 1-də "2 Fevral – Azərbaycan Gəncləri Günü elan edilməsi haqqında" Sərəncam imzalayıb. Əsası ulu öndər tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla reallaşdırılmasının nəticəsidir ki, bu gün Azərbaycan gəncləri ictimai-siyasi, sosial-mədəni və digər sahələrdə fəal iştirak edirlər.

Tələbə-gənclər təşkilatının sədri, İnformatika kafedrasının müəllimi Zümrüd Səfərova Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə mədəniyyət, təhsil və ictimai fəaliyyət sahələrində xüsusi fərqlənən 6 gəncin təltif olunduğunu bildirərək onların arasında öz adının da olmasını muxtar respublika gəncliyinə verilən qiymət kimi dəyərləndirib.

Vurğulanıb ki, Naxçıvan şəhərinin 2018-ci il üçün ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar keçirilən "Gənclər Paytaxtının ən yaxşı tələbə-gənclər təşkilatı" müsabiqəsində Naxçıvan Dövlət Universitetinin tələbə-gənclər təşkilatının qalib olması ali təhsil ocağında gənclərə yaradılan hərtərəfli şəraitin nəticəsidir.

Bədən tərbiyəsi və idman ixtisasının qiyabi şöbə üzrə V kurs tələbəsi Əhməd Əhmədov da çıxışında tələbə-gənclərə göstərilən dövlət dəstəyindən danışıb.

Sonda əlamətdar tarixi gün münasibətilə universitetin ictimai həyatında, müxtəlif bilik yarışmalarında, idman sahəsində fərqlənən bir qrup tələbə mükafatlandırılıb.

**Səadət ƏLİYEVA**

## Doktorantura və dissertanturaya növbəti qəbul

"Naxçıvan" Universitetində doktorantura və dissertanturaya növbəti qəbul keçirilib. Qəbul prosesi ilə bağlı universitetin rektoru, professor İsmayıl Əliyev çıxış edərək bu il ali təhsil ocağına 4 doktorantura və 15 dissertantura yeri verildiyini bildirib, doktorant və dissertantlara uğurlar arzulayıb.

Tədris və tərbiyə işləri üzrə prorektor Hüseyn Bağırsoylu çıxış edərək qəbulun qaydaları və ixtisaslar barədə danışıb.

Sonda doktorant və dissertantlar elmi işlərinin mövzuları və elmi rəhbərləri haqqında məlumat veriblər.

**Nuray ƏSGƏROVA**

## Elmi konfrans olub

*Naxçıvan Müəllimlər İnstitutunda "Naxçıvan xalçaçılığı: keçmişdən günümüzə" mövzusunda elmi konfrans keçirilib. Tədbiri giriş sözü ilə institutun rektoru, dosent Elbrus İsayev açaraq mövzu ilə bağlı elmi konfransın ilk dəfə keçirildiyini vurğulayıb, tədbirin əhəmiyyətindən bəhs edib.*

Konfransda AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Fəxrəddin Səfərli "Naxçıvan Muxtar Respublikasında xalçaçılığın qorunması və inkişafına dövlət qayğısı" mövzusunda çıxış edib. Bildirib ki, qədim tarixi və zəngin mədəniyyəti ilə seçilən Naxçıvan həm də bu mədəniyyətə qiymətli töhfələr vermiş xalçaçılıq ənənələri ilə seçilir. Əlverişli iqlimi və mühüm ticarət yolları üzərində yerləşməsi bu ərazidə bir çox sənət sahələrinin, o cümlədən xalçaçılığın inkişaf etməsinə geniş imkanlar açıb.

Qeyd edilib müstəqillik illərində bu qədim el sənətinin yaşadılması və təbliği istiqamətində mühüm addımlar atılıb. Ölkə Prezidenti cənab İlham Əliyevin 2018-ci il 15 fevral tarixli "Naxçıvan şəhərində xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncamı Naxçıvanda xalçaçılıq sənətinin sənaye üsulu ilə inkişafına imkan verəcək. Həmçinin Naxçıvan xalçaçılıq məktəbinin daha dərindən öyrənilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" təsdiq edilib. Dövlət proqramının yerinə yetirilməsi ilə əlaqədar Tədbirlər Planı təsdiq olunub. Həmin Tədbirlər Planında həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin icrası Naxçıvan Muxtar Respublikasının bir sıra nazirlik, komitə, elm və təhsil müəssisələrinə tapşırılıb.



Vurğulanıb ki, sərəncamların icrasına uyğun olaraq muxtar respublikada xalçaçılıq sahəsində aparılan elmi-tədqiqat işlərini sistemli şəklə salmaq üçün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 25 iyul tarixli Qərarı ilə AMEA Naxçıvan Bölməsinin tərkibində "Xalçaşünaslıq" elmi-tədqiqat qrupu yaradılıb. Qrup ötən il noyabr ayının 1-dən etibarən fəaliyyətə başlayıb. Bölmənin uyğun mütəxəssisləri Naxçıvanda xalçaçılığın yaranması, keçdiyi inkişaf yolu, hazırkı vəziyyəti ilə əlaqədar tədqiqatlarını genişləndirir, qarşıya qoyulan vəzifələrin uğurlu həllinə nail olmaq üçün səylə çalışırlar.

Bildirilib ki, "Naxçıvan xalçaçılığı: keçmişdən günümüzə" mövzusunda keçirilən elmi konfrans Naxçıvanda xalçaçılığın yaranması, inkişafı, Azərbaycan xalçaçılıq tarixində Naxçıvan xalçaçılıq məktəbinin yeri və rolu, Naxçıvan xalçaçılığının bu günü və gələcəyi ilə əlaqədar aparılan tədqiqatların, əldə olunan nəticələrin müzakirəsi, ümumiləşdirilməsi, xalçalarımızın qorunması, gələcək nəsillərə ötürülməsi, ölkə miqyasında və beynəlxalq aləmdə təbliği sahəsində həyata keçirilən tədbirlərin diqqətə çatdırılması baxımından müstəsna rola malikdir.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin Memarlıq kafedrasının müdiri, memarlıq üzrə fəlsəfə doktoru, dosent Gülnarə Qənbərova "Naxçıvan xalçaları mədəniyyət abidəsi kimi", Naxçıvan Müəllimlər İnstitutunun Ümumi fənlər kafedrasının müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent Asif Axundov "Naxçıvanda xalçaçılıq sənətinin xammal ehtiyatları və onun inkişaf perspektivləri", Naxçıvan Dövlət Xalça Muzeyinin direktoru Ülviyyə Məmmədova "Naxçıvanın xovsuz xalçaları", "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialının direktoru Səriyyə Hüseynova "Xalçalarımız-xalq müdrikliyinin nümunəsi kimi" mövzularında çıxış ediblər.

Sonra elmi konfransın bölmə iclasları keçirilib.

**Nail ƏSGƏROV**

# Dövlət proqramı sağlam gələcəyimizə xidmət edir

*Xalqın, dövlətin ən qiymətli sərvəti uşaqlardır. Uşaqlar xalqın gələcəyi, dövlətin möhkəmliyidir. Bu səbəbdən hər bir dövlət və cəmiyyət gələcəyi olan uşaqların qayğısına qalmağı, onların fiziki və mənəvi cəhətdən böyüməsini təmin etməyi özünün ən ümdə vəzifələrindən biri hesab edir. Ölkəmizdə uşaqlara qayğının dövlət siyasətinin əsas istiqaməti kimi müəyyənləşməsi ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır.* ***“Mən həyatımın, bu günümün, gələcəyimin xoşbəxtliyini məhz uşaqlara qayğıda, diqqətdə görürəm”****, – deyən dahi şəxsiyyət onların layiqli vətəndaş kimi formalaşdırılmasını hər bir dövlətin başlıca sosial məsuliyyətlərindən biri kimi belə dəyərləndirirdi:* ***”Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır”.***

Ulu öndərin müəyyənləşdirdiyi dövlət uşaq siyasəti bu gün respublikamızda da uğurla həyata keçirilir, müxtəlif təbəqələrdən olan uşaqların hər birinə xüsusi diqqət və qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Əgər xalqımızın, dövlətimizin gələcəyini düşünürüksə, bu gələcəyin təminatçısı olan uşaq və gənclərin sağlam mühitdə yetişməsi qayğısına qalmalı, onların təlim-tərbiyəsi ilə ciddi məşğul olmalıyıq”.***

Hazırda əhalinin, xüsusən məktəbyaşlı uşaqların sağlamlığının qorunmasına, onların müayinə və müalicəsinə, dispanserizasiyasının təşkilinə xüsusi diqqət yetirilir. Çünki xəstəliklərin və əlillik hallarının əksəriyyətinin təməli uşaq yaşında qoyulduğundan xəstəliklərin vaxtında aşkar edilməsi məqsədilə icbari tibbi müayinələrin aparılmasının, aşkar edilmiş xəstə uşaqların dispanserizasiyaya cəlb edilməsinin və müalicə-sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsinin müstəsna əhəmiyyəti vardır. Bu mənada, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı” uşaq əhalisinin sağlamlığının qorunmasında yeni mərhələ açıb. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən xüsusi tədbirlər planı hazırlanaraq ötən ildən dövlət proqramının icrasına başlanılıb.

Sərəncamda da qeyd olunduğu kimi dövlət proqramının məqsədi uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyətini yüksəltməklə onların arasında xəstələnmə, sağlamlıq imkanlarının məhdudluğunun və ölüm səviyyəsinin azaldılmasıdır. Bu məqsədlə hazırda muxtar respublikada 227 tibb müəssisəsi tərəfindən uşaqlara müasir səviyyədə xidmət göstərilir. Müasir standartlara cavab verən Naxçıvan Muxtar Respublika Xəstəxanası, “Diaqnostika-Müalicə Mərkəzi” publik hüquqi şəxsi, Əziz Əliyev adına Mərkəzi Uşaq Xəstəxanası, Doğum Perinatal Mərkəzi, Uşaq Bərpa Mərkəzi, Duzdağ Fizioterapiya Mərkəzi, Körpələr Evi və Ailələrə Dəstək Mərkəzi, rayon mərkəzi və kənd sahə xəstəxanaları, kənd həkim ambulatoriyaları və feldşer-mama məntəqələri bu gün, eyni zamanda uşaqların sağlamlığı keşiyindədir. Ötən il Əziz Əliyev adına Mərkəzi Uşaq Xəstəxanası əsaslı təmir edilərək yenidən qurulub, maddi-texniki bazası yenilənib, müasir standartlara cavab verən avadanlıqlarla təmin olunub. Ali Məclis Sədrinin tapşırığı ilə Şərur Rayon Uşaq Xəstəxanası yaradılıb və müasir, dünya standartlarına uyğun tibbi avadanlıqlarla təchiz edilərək yanvarın 24-də istifadəyə verilib.

Həmin tibb müəssisələrində uşaq əhalisinə tibbi yardım üçün Naxçıvan şəhərində 23 sahə, bu sahələrə nəzarət edən 16 həkim-pediatr, 33 tibb bacısı fəaliyyət göstərir. Sahə pediatrları və tibb bacıları tərəfindən mütəmadi olaraq sahələrə nəzarət olunur, yeni doğulmuş uşaqların qeydiyyatı və peyvəndə cəlb olunması işləri həyata keçirilir. 2018-ci ildə uşaq əhalisinə ixtisaslaşmış tibbi xidmət göstərmək məqsədilə ixtisas həkimlərindən ibarət həkim briqadaları tərəfindən pediatr olmayan, yaxud sərhəd zonalarda yerləşən ucqar dağ kəndlərində 12 min 359 uşaq müayinə edilib, ehtiyacı olanlara tibbi xidmət göstərilib.





İcbari dispanserizasiya ilə əhatə olunmuş uşaqların elektron qeydiyyatı Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsi tərəfindən həyata keçirilir. Əziz Əliyev adına Mərkəzi Uşaq Xəstəxanası və Şərur Rayon Uşaq Xəstəxanasında səhiyyə informasiya sistemi yaradılaraq dispanserizasiyadan keçmiş uşaqların elektron qeydiyyatı aparılır.

Dövlət təhsil müəssisələrində, o cümlədən bütün məktəb və bağçalarda pulsuz ilkin tibbi yardım xidməti təşkil olunub. Naxçıvan şəhərində 20 məktəb və bu məktəblərin hər birində pediatr və tibb bacısı fəaliyyət göstərir. Rayonlarda və kəndlərdə isə rayonun və ya kəndin tibb müəssisəsinin pediatr və tibb bacıları tərəfindən həmin məktəbdə oxuyan uşaqlar arasında dispanserizasiya, ilkin tibbi yardım, yoluxucu xəstəliklərin erkən aşkar olunması və müayinələrə cəlb edilməsi, profilaktik peyvəndlərin vaxtında vurulması, diaskin testlərinin nəticələrinin duzgun qeydiyyatı, həmçinin hiperergik reaksiyalı uşaqların Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserində ixtisaslı həkimlər tərəfindən müayinəsi və müalicəsinin təmin olunması, qida blokuna nəzarət daim diqqət mərkəzindədir.

Ötən ilin oktyabr ayından uşaqların növbəti icbari dispanserizasiyasına start verilib. 21 min 946 uşaq müayinə olunub, 7 min 281 nəfər müxtəlif xəstəliklərə görə dispanser qeydiyyata götürülüb. Bəzilərinin valideynləri ilə maarifləndirici söhbətlər aparılıb, ehtiyacı olanlar ixtisas həkimlərinə yönləndirilib. Rayonlar üzrə dispanserizasiyaya cəlb olunan uşaqların sayı 9 min 991 nəfər təşkil edib.

Uşaqlar arasında qurd invaziyalarının qarşısının alınması üçün şəhər və rayon gigiyena və epidemiologiya mərkəzləri tərəfindən ildə iki dəfə profilaktik müayinələr aparılır. Müayinə nəticələrinə uyğun olaraq 2019-cu il üçün qurd əleyhinə 6 min “Mebendazol” tablet sifariş verilərək gətirilib və orta məktəb şagirdlərinə müalicəvi və profilaktik dozada təyin olunması nəzərdə tutulub.



Həm sahə həkimi və tibb bacıları, həm də məktəbə nəzarət edən pediatr və tibb bacısı uşaqlar və valideynlər arasında sanitar-gigiyenik qaydalar, həmçinin peyvəndlərin əhəmiyyəti və vurulma səbəbləri, uşaqların düzgün qidalanması və aktiv həyat tərzinin faydaları haqqında maarifləndirici söhbətlər aparırlar. Hər il muxtar respublikada bütün pediatrların və pediatriya sahəsində işləyən tibb bacılarının iştirakı ilə “Pediatriyanın aktual problemləri” mövzusunda geniş konfrans keçirilir. Xüsusən 1 yaşa qədər uşaqların yoluxucu xəstəliklərdən qorunması məqsədilə 2011-ci ildə yeni əlavələr edilmiş milli peyvənd təqvimindən istifadə olunur. Təkcə ötən il Doğum Mərkəzində və doğum şöbələrində doğulan 5 min 247 uşağa 12 saat ərzində hepatit B, 7 gün müddətində BCJ peyvəndləri vurulub, poliomielit peyvəndi damcı şəklində verilib. 2 aylığından uşaqlara pentavaksin peyvəndi və digər peyvəndlər vurulub. Bütün bunların nəticəsidir ki, muxtar respublikada idarəolunan yoluxucu xəstəliklərin qarşısı alınıb.

2009-cu ildən elektron sağlamlıq kartlarının tətbiqinə başlanılıb. Təkcə ötən il 1457 elektron kart alınaraq valideynlərə paylanılıb. Qaçqın və şəhid ailələrinin uşaqlarına, dövlət proqramı ilə əhatə olunmuş və imtiyazlı uşaqlara, yaxud valideynlərinin həyat şəraiti çətin olan uşaqlara yaş həddi qoyulmadan hər növ tibbi yardımın pulsuz göstərilməsi təmin olunub. Həmçinin sağlamlıq imkanları məhdud olan uşaqların reabilitasiyası üçün Səhiyyə Nazirliyi tərəfindən 28 əlil uşaq Naxçıvan Muxtar Respublikası Uşaq Bərpa Mərkəzinə göndərilib.

Ötən il övladlığa götürülən 3 yaşınadək 11 uşaq Səhiyyə Nazirliyində mərkəzləşdirilmiş qeydiyyata alınaraq Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə məlumat verilib. Muxtar respublika və rayon gigiyena və epidemiologiya mərkəzləri tərəfindən qanunvericiliyə uyğun olaraq hər il azı iki dəfə olmaqla, məktəbəqədər təhsil müəssisələrində və məktəblərdə reydlər aparılır, sanitar-gigiyenik vəziyyətə, uşaqlara verilən qida məhsullarının keyfiyyətinə və günlük qida rasionlarının yetərli və tərkibinin çeşidli olmasına nəzarət edilir.

Valideynlərini itirmiş, yaxud valideynlərinin həyat şəraiti çətin olan əlil və qüsurlu uşaqların aşkar edilməsi və qeydiyyata alınması daim diqqətdə saxlanılır, həmin uşaqların Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə göndərilməsi həyata keçirilir. Bu müəssisədə 10 fiziki qüsurlu uşağa valideynə dəstək məqsədilə qulluq edilir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən tibb müəssisələrində uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin daha da yaxşılaşdırılması məqsədilə pediatriya sahəsində tibbi kadrların yetişdirilməsi, həkimlərin peşə hazırlıq səviyyəsinin yüksəldilməsi üçün ixtisas və təkmilləşdirmə kurslarına göndərilməsi işi daim təşkil olunur. Təkcə ötən il Türkiyə Respublikasının müxtəlif şəhərlərindəki araşdırma xəstəxanalarına və Bakı şəhərinə 50-yə yaxın həkim və orta tibb işçisi kurslara göndərilib. 132 tibb bacısı isə Naxçıvan tibb müəssisələrində iş yerində təcrübə üçün kurs keçib. Peyvəndlərin düzgün vurulması və ağırlaşmaların olmaması məqsədilə 30 vaksinatorun Naxçıvan Tibb Kollecində kursa göndərilməsi təmin olunub.

Həkim təyinatı olmadan narkotik və psixotrop dərmanların satışının qadağan edilməsi daim diqqətdə saxlanılır. İldə iki dəfə olmaqla Səhiyyə Nazirliyinin Əczaçılıq və dərman vasitələrinin reyestri sektoru tərəfindən əczaxanalarda yoxlamalar aparılır, dərman preparatlarının həm reseptə uyğun verilməsinə, həm də saxlanılma şəraitinə daim nəzarət edilir.

Keçən il talassemiyalı və hemofiliyalı uşaqlarda hepatit virusunun qanla yoluxma ehtimalı olduğundan bu virusa görə profilaktik peyvənd aparılıb. Həmçinin mövsümi xəstəliklər və onlardan qorunma yolları, uşaqların düzgün qidalanması, böyüməkdə olan orqanizmin sağlam olması üçün aktiv həyat tərzinin vacibliyi haqqında səhiyyə maarifi işi aparılır. Hər il “Antibiotiklərə dur” devizi ilə keçirilən konfranslarda usaqlara təyin olunan antibiotiklərin zərərləri və dozalanmanın duzgün olmasının vacibliyi haqqında geniş məlumatlar verilir, müzakirələr təşkil edilir. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurasının qərarı ilə Əziz Əliyev adına Mərkəzi Uşaq Xəstəxanasının həkimləri tərəfindən “Sağlam uşaqlarla sağlam gələcəyə” adlı kitab hazırlanaraq onlarda ən çox rast gəlinən xəstəliklər haqqında geniş və əhəmiyyətli məlumatlar verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Şərur Rayon Uşaq Xəstəxanasının açılışında dövlət proqramında qarşıya qoyulan vəzifələrin həyata keçirilməsini, eyni zamanda səhiyyə protokollarına əməl edilməsini kollektivin qarşısında duran əsas vəzifə kimi irəli sürüb. Bu vəzifələr uşaq əhalisinə tibbi yardım göstərən bütün səhiyyə müəssisələrinə aiddir. Həmin müəssisələrdə yaradılan şərait, quraşdırılan müasir avadanlıqlar və həkimlərin kurslara göndərilməsi qarşıya qoyulmuş vəzifələrin uğurla yerinə yetirilməsinə imkan verəcəkdir.

Uşaqlara qayğı təkcə dövlətin üzərinə düşən vəzifə deyil. Hər bir şəxs uşaqların hərtərəfli böyüdülməsi üçün səy göstərməlidir. Çünki uşaqlar təkcə bir evin deyil, bütün el-obanın ən qiymətli, ən dəyərli sərvəti, hər bir xalqın gələcəyidir. Gələcəyi qorumaq isə təkcə qanunların deyil, hamımızın borcudur. Cəmiyyətin ən kövrək, həssas təbəqəsi olan uşaqlara hər bir vətəndaşın diqqəti, qayğısı və sevgisi lazımdır.

## Bakı Şəhər Mərkəzi Klinik Xəstəxanasının həkimləri Doğum Mərkəzində olublar

*Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzində Bakı Şəhər Mərkəzi Klinik Xəstəxanasının həkimlərinin iştirakı ilə “Sonsuzluğun müalicəsində müasir texnologiyaların rolu” mövzusunda elmi-praktik konfrans keçirilib.*

Konfransda Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsinin müdiri Süleyman Cəfərov bildirib ki, ölkəmizdə ana və uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması dövlətin sosialyönümlü siyasətinin prioritet istiqamətlərindən biridir. Son illər bu sahədə mühüm tədbirlər həyata keçirilib. “Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı”nın icrası ilə bağlı onlara tibbi xidmət göstərən müəssisənin maddi-texniki bazası möhkəmləndirilib, dərman preparatları və tibbi avadanlıqlarla təminatı yaxşılaşdırılıb.

Qeyd olunub ki, hazırda reproduktiv sağlamlığa və ailə planlaşdırılmasına nəzarət daha da gücləndirilib, səhiyyə maarifi işləri günün tələbləri səviyyəsində qurulub. Hamilələrin qeydiyyatı işinin daha da yaxşılaşdırılması məqsədilə mama-ginekoloji şöbələrdə hamilələrin elektron reyestri yaradılıb. Ginekoloji xəstəliklərin vaxtında aşkar edilməsi, müalicə işinin düzgün və səmərəli qurulması üçün profilaktik müayinə tədbirləri daha da gücləndirilib.



Sonra Mərkəzi Klinik Xəstəxananın Mama-ginekologiya şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru, Əməkdar həkim Mahirə İsmayılovanın, həmin xəstəxananın embrioloqu İlyas Karayakanın, ginekoloqlar Könül Əhədzadə və Fidan Həsənovanın, həkim-rezident Leyla Səfərovanın müxtəlif mövzularda çıxışları dinlənilib. Çıxışlarda sonsuzluğun müalicəsində uğurla tətbiq edilən ən müasir müalicə metodları və texnologiyalar barədə tədbir iştirakçılarına ətraflı məlumat verilib.

Çıxışların slaydlar vasitəsilə nümayiş olunduğu konfransda iştirakçıları maraqlandıran suallar da cavablandırılıb.

Doğum Mərkəzinin baş həkimi Kəmalə Qurbanova müasir informasiya və təhsil texnologiyalarına əsaslanan belə konfransların səhiyyə mütəxəssislərinin peşə, bilik və bacarıqlarının təkmilləşdirilməsində mühüm əhəmiyyəti olduğunu önə çəkib.

Qeyd edək ki, Mərkəzi Klinik Xəstəxananın həkim briqadası tərəfindən xəstələrin pulsuz ginekoloji müayinəsi də həyata keçirilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

Yurdumuzun nemətləri

## Alma almaya bənzər, amma saxlanması əsla...

*Şahbuz rayonunun Kükü kəndi adı dillər əzbəri olan alması ilə muxtar respublikamızda almanın vətəni sayılır. Buradakı almalardan başqa yerlərdə də görmək olar. Təbii ki, xarici görünüşünə görə. Bəli, axı alma almaya bənzər. Lakin Kükü almasının dad-tamı bənzərsizdir. Çünki dəniz səviyyəsindən 2000 metrədək yüksəklikdə yerləşən kənddə günəş və oksigen boldur. Bu da, sözsüz ki, almanın keyfiyyətinə də, dad-tamına təsir edir. Bir də ki kənddə qədim alma saxlama ənənələri vardır ki, buna da hər yerdə təsadüf etmək olmur. Oktyabrda bağlardan yığılan alma bu ənənəvi saxlama üsulu ilə düz aprel-may aylarınadək ağacdan necə dərilibsə, elə də qalır. Hansı ki almanın başqa yerdə bu qədər qalması mümkünsüzdür.*



Qışın yurdumuza qədəm qoyub sazağı-soyuğu ilə təbiətə hökmranlıq etdiyi bir vaxtda bu qədim ənənəni yaşadan insanlarla görüşüb söhbət etmək üçün üz tuturuq Kiüküyə. Burada bizi günəşin solğun şüaları altında bərq vuran qarın əsrarəngizliyi qarşılayır. Ömürlərindən daha bir üç fəsil keçirib, dördüncüyə qədəm qoyan ağacların çılpaqlaşması baharda, yayda yarpaqların sıxlığından görünməz olan evlərin, həyətlərin indi bambaşqa bir mənzərəsini yaradıb. Ağappaq qarın fonunda isə abad yollar, əzəmətli məktəb, həkim ambulatoriyası, kənd mərkəzinin binaları bu ucqar kəndə göstərilən qayğıdan "söhbət açır".



Elə bu abad yollarla da yollanırıq almanın dilini çox yaxşı bilən və indi də bu meyvənin saxlanmasında qədim üsuldan istifadə edən onlarla kükülüdən biri olan Yunis müəllimgilə. Salamlaşıb, hal-əhval tutduqdan sonra ondan xahiş edirik ki, alma saxladığı yeri bizə göstərsin. O, həyətdə dayandığımız yerdən əlini bir qədər qarşıya uzadaraq, budur, – deyir. Ətrafa göz gəzdirirəm, hər yan ağappaq qardır, öz-özümə fikirləşirəm ki, görəsən, o, haranı göstərir? Utanmaqdan keçib, – deyib yenidən soruşuram: – Yunis müəllim, alma saxladığınız yerə baxa bilərikmi? O, bu dəfə heç bir söz demədən bizdən ayrılır və əlində bellə geri qayıdır. Gəlin deyir. Mənsə hələlik heç nə anlamıram. Yunis müəllim bağçanın evə yaxın bir yerində dayanıb oranın qarını təmizləyir. Biz də arxasınca gedib diqqətlə onu seyr edirik. Bir azdan, təxminən, bir metr uzunluğu, bir metr də eni olan yerin qarı təmizlənir, torpaq görünür. Bu dəfə Yunis müəllim həmin ərazinin torpağını bellə bir kənara çəkir, torpağın altından "şifer" dediyimiz dam örtüyü görünür.Torpağı tamamilə götürəndən sonra Yunis müəllim həmin örtüyü qaldırır. Budur, bayaqdan bəri görmək istədiyimiz almalar. Hələ onu da öyrənirik ki, həmin almaların altında bir neçə qat da alma yığılıb. Doğrusu, mən çox heyrət etdim, həyətin ortasında, yağışın, qarın altında alma, bu, necə ola bilər? Almanın bu cür saxlanması nə üçündür, bu quyu və yaxud çala necə düzəldilir, alma buraya necə yerləşdirilir? kimi, bəlkə, on sualı birdən verirəm Yunis müəllimə.

O deyir: – Bu kənddə bineyi-qədimdən alma bağları olub, elə indi də var. Bundan əlavə, həyətlərdə də ən azından hər kəsin 10-15, daha çox alma ağacı var. Kənd camaatı almanın zaman-zaman bu torpağı sevdiyini, yaxşı məhsul verdiyini, dad-tamı, keyfiyyəti ilə seçildiyini görüb ilbəil almaçılıqla daha çox məşğul olmağa başlayıblar. Məşğul olduqca da onun "dilini" daha yaxşı öyrəniblər, il-dən-ilə də bu sahəni genişləndiriblər. Meyvəçiliyin və tərəvəzçiliyin inkişafı ilə bağlı qəbul olunan dövlət proqramından sonra elə muxtar respublikamızın hər yerində, eləcə də Şahbuz rayonunda hər il yeni meyvə bağları salınır ki, bunlar arasında alma bağları üstünlük təşkil edir.

Bax torpağın altında almanın saxlanmasını mən bu həyətdə atamdan görüb öyrənmişəm. Bunun üçün yer, baxır sənin burada saxlayacağın almanın miqdarına, uzunluğu 1 metrdən 2, eni yarım metrdən 1 metrədək, dərinliyi isə 40 santimetrdən 1 metrədək qazılır. Quyuya ya qum, ya da quru ot tökülür, alma düzülür üstünə, dolanadək bir qat alma, bir qat ot olmaqla yığılır. Sonra üzəri otla örtülür, bir tərəfdən havalandırma üçün 25 və ya 50-lik boru qoyulur, şifer düzülür, üstü torpaqlanır. Borunun baş tərəfi torpaqdan 20 santimetr çölə çıxarılır. Bu borunun ağzına qapaq da düzəldilir. Yağış, qar yağanda həmin qapağı borunun ağzına qoyur, hava yağıntısız olanda götürürsən. Bu cür quyulara alma yeşiklərdə də yığıla bilər. Lakin bir cərgə alma, bir cərgə ot üsulu almanın saxlanmasında daha əlverişlidir. Çünki burada meyvə bir-birinə dəymədiyi üçün zədələnmir, uzun müddət qala bilir.

Yunis müəllimə belə bir sual da verirəm ki, bəs birdən könlün alma yemək istədi, gərək bu qədər torpağı kənara çəkəsən, şiferi qaldırasan ki, 5-10 alma götürə biləsən, bu necə olur? O gülümsəyərək cavab verir ki, xeyr, bu heç də fikirləşdiyiniz kimi çətin deyil. Bu üsulu tətbiq edən ata-babalarımız ona da çarə düşünüblər. Quyunun ağzına bütöv yox, parça-parça şiferlər qoyurlar ki, alma götürmək lazım gələndə əziyyət çəkməsinlər. Quyunun bir kənarından torpağı təmizləyib, şifer parçasını qaldırıb oradan götürsünlər.

Kənd sakini Qurban müəllim və Yusif əmi ilə almanın bu qədim üsulla saxlanması barədə xeyli söhbət etdik, həyətlərindəki almalığa baxdıq. Onlar deyirlər ki, kənddə nəinki almanı, hətta kartofu, kələmi də bu qədim saxlama üsulu ilə aylarla saxlayırlar.



Yunis müəllimdən kənddə hansı alma növlərinin çoxluq təşkil etdiyini də xəbər aldım. O deyir ki, burada almanın "qış qızılı", "belflor", "smerenko", "ağ palmet", "qırmızı palmet", "banan", "toz", "konfet", "qarpız", "yay", "payız" və sair növləri var. Bunlar içərisində "banan" və "qarpız" almanı ilk dəfə eşitdiyimdən diqqətimi çəkdi və onlar barədə soruşdum. Yunis müəllimin həyat yoldaşı Şövkət xanım ayağa qalxıb zirzəmiyə endi və məcməyi dolu iri almalarla geri qayıtdı, dedi ki, "qarpız alma" budur, buna "xonçalıq alma" da deyirlər. Kənddəki bütün xeyir işlərdə – nişanlarda, toylarda ilk xonça bu almadan tutular. O, əli ilə almanın "yanaqlarını" göstərib, baxın, ana-nənələrimiz bu kəndin qız-gəlinlərini sevələyəndə belə deyirlər:

*Alma-almaya bənzər,*
*Bu qız bəs kimə bənzər?*
*Gül yanaqlı, ay üzlü,*
*Elə almaya bənzər.*

Hər birinin öz rəngi, dad-tamı olan almaların ümumi keyfiyyətlərindən danışan Yunis müəllim deyir ki, almanın tərkibi vitaminlər, orqanizmə lazım olan minerallar, karbohidratlar, bakteresid maddələrlə zəngindir. Tərkibində sağlamlığın ən başlıca amili olan suyun da olduğu almadan hər gün 4-5 ədəd, həm də qabıqlı, dənəsi ilə birlikdə yemək insanın əhval-ruhiyyəsinə xoş təsir göstərməklə yanaşı, orqanizmdə bir çox xəstəliklərin qarşısını alır, bronxial-astma, dəmir azlığı, ağciyərlə bağlı xəstəlikləri aradan qaldırır, qan təzyiqini sabitləşdirir.

Yeri gəlmişkən Yunis müəllimdən alma ağacının necə əkilib-becərildiyi barədə də soruşdum. O deyir ki, alma tingi yazda və payızda əkilir. Bunun üçün çala qazılır, təbii gübrə tökülür, tingin kökü çalaya qoyulur və torpaqla basdırılır, dibinə 2-3 vedrə su tökülür. Bir əsas məsələni də deyim ki, əkilən tingin yarpaqları tökülməlidir. May-iyun aylarında tingdə cücərtilər əmələ gəlir. Əkilən ting 3-4-cü ilində 1-2 kiloqram bar verir. 5-6-cı ilində isə bir alma ağacından 100 kiloqrama qədər də meyvə götürmək olur. Hər yaz alma ağaclarının dibləri yumşaldılır, təbii gübrə verilir. Ağac tam bar verəndə orta budaqları kəsilir ki, həm ağacın içərisinə hava keçsin, həm də günəş şüaları bol şəkildə ala bilsin. Bu halda ağac həm yaxşı bar verir, həm də meyvə keyfiyyətli olur. Yazın əvvəllərində quru budaqlar kəsilir. Çiçək vaxtı isə ağacın aşağı budaqlarındakı meyvələr qoparılıb tökülür ki, yuxarıdakılar yaxşı inkişaf etsinlər.

Yunis müəllim almanın məhsuldarlığını aşağı salan ziyanvericilərə qarşı maraqlı bir mübarizə tədbirindən də söhbət açır. O deyir ki, böcəklərin meyvəyə ziyan vurmaması üçün avqust ayında ağacların gövdəsinə dairəvi şəkildə karton kağız bağlanılır, onun da üzərinə parça çəkilir. Ziyanvericilər buraya toplaşır, hətta sürfələrini də bura qoyurlar, bu sarğı fevral ayında çıxarılır və yandırılır. Təmiz hava, saf sular, bir də bu cür becərmə, qulluq Kükü almasını dillər əzbəri edib.

Yunis müəllim deyir ki, bir neçə ilin sözüdür, kəndə alma almağa gəlmişdilər. Yəqin, alverçi idilər, çünki almanın qiymətini aşağı salmaq istəyirdilər, deyirdilər ki, elə bunun eynisindən filan yerdən aldıq, bu qiymətə aldıq. Mən də cavabında dedim ki:

*Get, gəz eli, obanı,*
*Dolan dərəni, dağı.*
*Tapsan Kükü almasın,*
*Verrəm sənə bu bağı.*

Kənddə ən böyük alma bağı olan və bundan yaxşı gəlir əldə edən onlarla insan var. Onlardan Surxay Bağırov, Nurəli Səfərov və Çingiz Hüseynovla da söhbət etdim. Hər biri ildə bağlarından ən azından 5-7 ton alma məhsul götürürlər. Çingiz deyir ki, kənddə illərdir ki, belə bir ənənə formalaşıb ki, doğulan hər uşağın adına ruzi təməli olaraq bir alma tingi əkilir. Həyətlərimizdə alma ağacları var ki, onun meyvəsinin birinə bir adam əl vurmaz. Ağac kimindirsə, ruzisi də onundur. Vaxtında gələr, yığar, aparar. Gələ bilməyəninsə alması yığılar, evinə göndərilər.

Kükünün bol, həm də gözəl görünüşlü, dadlı-tamlı alması burada mənə uşaqlıq çağlarımızın nağıllar aləminin "Məlikməmməd"ini xatırlatdı. Süjet xəttinin bir istiqamət şahın bağçasındakı sehrli alma ağacları üzərində qurulan nağılda həmin bağdakı almadan kim yeyərdisə, 10-15 yaş cavanlaşardı. Kükü alması da adama sehrli təsir bağışlayır. Bu alma nəinki onu yeyənləri gənc saxlayır, hətta bu meyvədən hər gün istifadə edənlər bir çox xəstəliklərdən də kənar olur.

Çingiz deyir ki, alma əbədiyyət və əbədi gənclik, həyat ağacının meyvəsi, həyat, elçilik, dirilik simvolu kimi, demək olar ki, bütün xalq ədəbiyyatı nümunələrimizdə özünü göstərir. Yəqin elə buna görədir ki, illərdir, kənddəki toy mərasimlərində gəlin oğlan evinə gələrkən bəy uca bir yerdə dayanır, gəlinin başına şirniyyatla birlikdə alma da atır. Baba-nənələrimiz deyərdilər ki, toyda alma atılmasının bəxt, tale, niyyət kimi mənalarla bağlılığı vardır. Gəlinin başına atılan almaları kim yerdən götürüb yeyərsə, niyyəti hasil olar, bəxti açılar, tezliklə ona da toy qismət olar. Kəndimizdə Novruz bayramında da alma ilə niyyət edilir. İlin axır çərşənbə gecəsi almanı qabıqlarını qırmamaq şərtilə bütöv soyub yesən, qabıqları isə güzgü ilə bir yerdə başının altına qoyub yatsan, qismətinə çıxacaq adamı yuxuda görərsən, – deyərlər.

Kiüküdən ayrılıb kəndin gözəl mənzərələrini seyr edə-edə üzüaşağıya – rayon mərkəzinə doğru irəlilədikcə uzun illərdən bəri oxunan bir xalq mahnısının sözləri dilimdə dolaşır: "Almanı atdım xarala, qaldı sarala-sarala". Yolboyu düşünürəm ki, bəlkə də, bu mahnının sözləri vaxtilə elə qafiyə xatirinə yazılıbmış, axı alma xaralda saralanadək çoxdan xarab olub gedər. Lakin bu qədim saxlama üsulu ilə alma saralıb oktyabrdan mayadək – düz səkkiz ay bu gün dərilibmiş kimi qalırsa, elə almanı xarala yox, quyuya atmaq, bu qədim üsulla saxlamaq lazımdır. Hələ yeri gələndə bu almalara da şeir yazıb, mahnı qoşmaq daha məsləhətli olar. Çünki yayda-payızda Kükünün alma bağlarında bu mənzərələri də görə bilərsiniz: başlarına "rəngbərəng kələğayı salmış" ağacları. Utancaq qızların söz deyəndə allanan yanağına bənzər qırmızıyanaqlı almaların günəşin zərrin şüaları altında bərq vurmasını, bir də ki, ağacların budaqlarının alma yükündən tən ortadan dairəvi şaxələnib çəmənə dəyən budaqlarını – yaşıl yarpaqların fonunda qırmızı, sarı, ağ, yaşıl almaların gözəlliyini...

Mətanət MƏMMƏDOVA

*Naxçıvan şəhərindəki Gənclər Mərkəzində gənc dövlət qulluqçuları arasında fərdi "Xəmsə" intellektual oyunu keçirilib.*

## İntellektual oyun keçirilib



Oyunda iştirakçılar mövzuya uyğun olaraq 5 sualı cavablandırıblar. Hər bir iştirakçı oyunda iki dəfə yarışıb. Sonda oyunun hər iki mərhələsinin nəticəsinə görə ən çox xal toplayan iştirakçılar qalib hesab olunublar.

Belə ki, Ədliyyə Nazirliyinin əməkdaşı Təbriz Eyvazlı qalib adını qazanıb. Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Səbuhi Həsənov ikinci, Təhsil Nazirliyinin əməkdaşı Gülnar Abbasova üçüncü olub.

Qaliblər diplom, fəxri fərman, hədiyyələr, kitablar və "Naxtel" nömrələrlə mükafatlandırılıblar.

Qeyd edək ki, intellektual oyun Gənclər və İdman Nazirliyinin, Gənclər Fondunun, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin və "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.

## İdmançımızdan möhtəşəm qələbə



Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyasının yetirməsi Etibar Qəribov növbəti peşəkar döyüşünü keçirib.

İdmançımız Türkiyənin İstanbul şəhərindəki Sinan Erdem İdman Kompleksində rinqə çıxıb. "Qasırğa" ləqəbli kikboksçumuzun rəqibi türkiyəli Ramazan Çapalar olub. Etibar Qəribov hər üç raundda rəqibi üstələyərək qalib gəlib.

Qeyd edək ki, idmançımız 6-cı peşəkar döyüşündə 4-cü qələbəsini qazanıb.

## Güləşçilərimiz 3 medal qazanıblar

*Abşeron Olimpiya-İdman Kompleksində sərbəst güləş üzrə Bakı şəhər açıq birinciliyi keçirilib.*

Birincilikdə Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının yetirmələri də mübarizə aparıblar. İdmançılarımızdan 51 kiloqram çəki dərəcəsində Kamal Qasımov bütün rəqiblərinə qalib gələrək birinci yerə layiq görülüb. Dadaş Dadaşzadə isə 80 kiloqram çəki dərəcəsində gümüş medal qazanıb.

Eyni zamanda "Sərhədçi" Olimpiya-İdman Kompleksində keçirilən cüdo üzrə Bakı şəhər açıq birinciliyində də yekun vurulub. İki gün davam edən paytaxt birinciliyində 28 klubdan 277 gənc cüdoçu (247 oğlan və 30 qız) medallar uğrunda mübarizə aparıb. İdmançımız Abdulla İsmayılov 100 kiloqram çəki dərəcəsində bürünc medal qazanıb.

Sonda qalib idmançılarımız diplom və medalla təltif olunublar.

Ceyhun MƏMMƏDOV


ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 75